AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI

*Əlyazması hüququnda*

**SƏYYARƏ NAMİQ qızı SADIXOVA**

# XALQ RƏSSAMI HÜSEYN ƏLİYEVİN YARADICILIĞI

**İxtisas: 6215.01 – "Təsviri sənət"**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Hüseynqulu Əli oğlu Əliyev**<br>xalq rəssamı, professor |
| **Rəsmi opponentlər:** | **Cəlil Qafar oğlu Hüseynov**<br>xalq rəssamı, professor |
| | **Günay Şirzad qızı Nərimanova**<br>sənətşünaslıq üzrə fəlsəfə doktoru |
| **Aparıcı müəssisə:** | **Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu** |

Müdafiə **11 iyul 2018-ci il saat 11:00** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində təşkil olunmuş FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1029, Bakı şəhəri, H.Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat **11 iyun 2018-ci il** tarixdə göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru; dosent:** **X.Z.Əsgərova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** XX əsrin 40-cı illərindən başlayaraq Azərbaycanın yaradıcılıq məkanında özünəməxsusluğu ilə seçilən məşhur rəssamlarından biri olan xalq rəssamı Hüseyn Əlirza oğlu Əliyev (1911-1991) Azərbaycan təsviri sənətinin ustad sənətkarlarından biri hesab edilir. Rəssamın parlaq sənəti xalq və dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. Belə ki, o, 1977-ci ildə əməkdar rəssam, 1982-ci ildə isə xalq rəssamı fəxri adlarına layiq görülmüşdür.

XX əsrin ortalarından başlayaraq incəsənətin bütün sahələrində olduğu kimi təsviri sənətin də qarşısında böyük ictimai və siyasi əhəmiyyətli məsələlər qoyulmağa başlandı. Bu isə, öz növbəsində yeni bədii forma, yeni təsvir vasitələri tələb edirdi. Bu mənada təsviri sənət üçün geniş meydan açıldı, yeni imkanlar yarandı, incəsənət geniş xalq kütlələrinin sənətinə çevrildi, onların arzu və istəklərini, həyat və məişətini əks etdirmək hüququ qazandı. Mövzu və janr müxtəlifliyi, bədii təsvir vasitələrinin rəngarəngliyi rəssamlıq sənətimizi səciyyələndirən mühüm keyfiyyətlərdən birinə çevrildi.

H.Əliyev qrafik fəaliyyətə 1929-cu ildə "Molla Nəsrəddin" jurnalından başlamışdı. Onun ilk qrafik rəsmləri bu mətbu orqanda dərc olunmuşdu. 1931-ci ildən isə “Kommunist” qəzetində çalışmışdı. 70 il “Kommunist” titulu ilə dərc olunan “Xalq qəzeti” özündə çoxlu sayda məşhur yazıçıları, jurnalistləri və ziyalıları əməkdaşlığa cəlb edə bilmişdi. Seyid Hüseyn, Süleyman Məlikov, Əli Vəliyev, Məmməd Səid Ordubadi, Tağı Şahbazi, Cəfər Cabbarlı, Mir Cəlal Paşayev, Məmmədli Sidqi, Süleyman Məlikov, Şəmsəddin Abbasov, Xəlil İbrahimov, Nəsir İmanquliyev və başqa təcrübəli mütəfəkkirlərin bu qəzetin gündəlik materiallarının formalaşdırılmasında böyük əməyi olmuşdur.

1922-ci ildən görkəmli sənətkar Əzim Əzimzadə “Kommunist” ("Xalq qəzeti") qəzetinin baş rəssamı olduqdan sonra 1935-ci il oktyabrın 4-dən onun bu vəzifəsini istedadlı rəssam Hüseyn Əliyev davam etdirməyə başlamışdı. O, 50 ildən çox həmin qəzetin bədii tərtibat şöbəsinin müdiri vəzifəsində çalışmışdı.

1944-cü ilin avqust ayında qəzetin redaktoru, nüfuzlu yazıçı Əli Vəliyevin SSRİ Müdafiə Nazirliyinə göndərdiyi tələbnamə əsasında Hüseyn Əliyev ordudan təxris olunmuş və redaksiyaya qayıtmışdı. O, “Xalq qəzeti”ndəki fəaliyyəti müddətində 15-dən çox redaktorla işləmişdir.

Hüseyn Əliyev bacarıqlı rəssam kimi üç dəfə Azərbaycan, bir dəfə Ukrayna Ali Sovetinin fəxri fərmanlarına layiq görülmüşdü.

Hüseyn Əliyev mədəniyyətimizin parlaq nümayəndələrindən biri olmaqla, onun şöhrətini artıran incəsənət xadimlərindən sayılır. Digər tərəfdən, sənətkarın orijinal bədii ifadə tərzi, üslub xüsusiyyətləri və dəsti-xətti Azərbaycan incəsənətinin bədii irsini zənginləşdirmişdir. Məhz, bu cəhətlərə görə müasir sənətşünaslıq elmində sənətkarın yaradıcılığının monoqrafik tədqiqinə ehtiyac var.

Təsviri sənətdə fərdi dəsti-xəttə malik olan H.Əliyevin – uzun illər Azərbaycan incəsənətinə xidmət edən istedadlı rəssamın yaradıcılığı indiyə qədər sistemli, geniş şəkildə araşdırılmayıb. Muzeylərdə, şəxsi kolleksiyalarda, qalereyalarda saxlanılan rəsm əsərləri bədii özünəməxsusluq baxımından elmi təsvir və təhlil olunmayıb. H.Əliyev sənətinin elmi araşdırılması incəsənət tariximizi genişləndirməklə bərabər, müasir Azərbaycan rəssamlığının inkişafına təkan vermiş olacaq. Bu baxımdan mövzunu kifayət qədər aktual hesab etmək olar.

**Problemin tədqiq olunma dərəcəsi.** Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığı daima sənətsevərlərin və mütəxəssislərin diqqətini özünə cəlb etmişdir. Rəssamın əsərləri müxtəlif kataloq və jurnallarda işıqlandırılaraq yaradıcılığının bəzi sahələri haqqında yazılar dərc olunmuşdur.

Hüseyn Əliyevin yaradıcılığı postsovet məkanında da yüksək qiymətləndirilmişdir. Vaxtaşırı mətbuat orqanlarında M.Nəcəfov[1], N.Həbibov[2,3],

L.Eldarova[4,], B.Hacızadə[5] və başqaları rəssamın müxtəlif illərdə sərgilərdə nümayiş etdirilən rəngkarlıq və qrafika əsərlərində ifadə olunan məna çalarlarından söz açmışlar. 1981-ci ildə rəssam haqqında “Xalq qəzeti"nin nəşriyyatının dərc etdirdiyi kataloq, 2009-cu ildə Ədalət Əliyev tərəfindən “Hüseyn Əliyev” adlı miniatür kitab[6], 2011-ci ildə rəssamın 100 illik yubileyi ilə əlaqədar sənətşünas Lalə Eldarovanın H.Əliyevin monotipiyalarına həsr etdiyi kataloq[7] dərc olunmuşdur.

Hüseyn Əliyev yaradıcılığının müxtəlif mərhələləri və bir neçə sahələrinə çoxsaylı məqalələrdə də rast gəlinir. Burada rəssamın müxtəlif janrlarda yaratdığı əsərlər diqqət mərkəzində olmuşdur. Bunlardan Əfsanə

---

[1] Nəcəfov M. Azərbaycan karikaturaçı rəssamları. Bakı: İşıq, 1972, 19 s.
[2] Həbibov N. Azərbaycan SSR-in təsviri incəsənəti. Bakı: Azərnəşr, 1959, 19 s.
[3] Габибов Н.Д. Пейзажная живопись Азербайджана // журн. «Искусство», 1969, № 5
[4] Eldarova L. Hüseyn Əliyev 1911-1991 “Sərvət” Bakı, 2013, 104 s.
[5] Hacızadə B. Azərbaycanın karikaturaçı rəssamları. Hüseyn Əliyev. Bakı: Səda, 2015, 56 s.
[6] Əliyev Ə. Azərbaycan xalq rəssamı Hüseyn Əliyev. Bakı: Çaşıoğlu, 2009, 505 s
[7] Eldarova L. Titrəyən kölgələr, sayrışan işıq, Hüseyn Əliyev 1911-1991, Bakı, 2011, 200 s.

Bayramqızının "Xalq rəssamı Hüseyn Əliyevin xatirəsi dərin hörmət və ehtiramla anıldı"[8], Flora Xəlilzadənin "Onun fırçası möcüzələr yaradırdı. Hüseyn Əliyev – 100"[9], Bayram Hacızadənin "Azərbaycan Xalq rəssamı Hüseyn Əliyevin satirik qrafikası"[10] adlı məqaləsini və digərlərini misal göstərmək olar.

**Tədqiqatın məqsədi və vəzifələri.** Azərbaycan Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığını sistemli təhlil edərək, rəssamın özünəməxsusluğunu, dəsti-xəttini, yaradıcılıq metodunu və mərhələlərini müəyyən etmək hazırki elmi-tədqiqat işinin əsas məqsədidir.

Eyni zamanda, rəssamın yaradıcılığının əksər hissəsini təşkil edən milli koloritə məxsus Azərbaycan motivlərini, akvarel-monotipiyaları, portretləri, karikatura və qrafik rəsmləri, natürmort, animalistik və məişət janrlarında olan azsaylı tabloları, süjetli kompozisiyaları təhlil etmək Hüseyn Əliyevin yaradıcılığının kompleks şəkildə tədqiqinə dəlalət edir.

Tədqiqatın aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- Xalq rəssamının indiyə qədər öyrənilməmiş əsərlərini təhlil etmək;
- Rəssamın əsərlərinin, faktiki materialların aşkara çıxarılması və sənətşünaslıq baxımından araşdırılması, təsviri sənət sahəsindəki yaradıcılığının fərqli cəhətlərinin araşdırılması;
- Rəssamın bədii kredosunu müəyyənləşdirməklə onun yaradıcılıq xüsusiyyətlərini xarakterizə edərək dəyərləndirmək;
- Hüseyn Əliyev yaradıcılığının müasir Azərbaycan təsviri sənətində yerini müəyyənləşdirmək.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas tədqiqat obyektini Hüseyn Əliyevin rəngkarlıq sahəsində işlədiyi tabloları, qrafika, akvarel-monotipiya əsərləri, "Molla Nəsrəddin", "Kirpi" jurnallarında və "Kommunist" qəzetində dərc olunmuş karikaturaları təşkil edir.

Tədqiqat işinin predmetini Hüseyn Əliyevin yaradıcılığını səciyyələndirən bədii xüsusiyyətlərin, yeni və orijinal ifadə vasitələrin, eləcə də, işlədiyi texniki üsulların təhlili təşkil edir. Rəssamın yaradıcılığındakı yeni təmayüllər araşdırılıb və konkret nəzəri müddəalarla təsbit olunmuşlar.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqatın metodoloji əsasını sənətşü-

---

8 Bayramqızı Ə. "Xalq rəssamı Hüseyn Əliyevin xatirəsi dərin hörmət və ehtiramla anıldı" // "Xalq qəzeti". 2011. 23 aprel, s.7

9 Xəlilzadə Ə. "Onun fırçası möcüzələr yaradırdı. Hüseyn Əliyev-100" // "Mədəniyyət" qəz. 2011. 29 aprel s. 13

10 Hacızadə B. Azərbaycan Xalq rəssamı Hüseyn Əliyevin satirik qrafikası // "Mədəniyyət dünyası" Elmi-nəzəri məcmuə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XXV buraxılış, Bakı, 2013, s.178-183

naslıq profilli təhlillər təşkil edir. Bu proses zamanı ayrı-ayrı əsərlərin bədii-stilistik və müqayisəli aspektləri üzə çıxarılır. Bu istiqamətdə həyata keçirilən təhlillər Hüseyn Əliyevin yaradıcılıq təcrübəsində tipoloji və təkamül əsasında formalaşmış müxtəlif yaradıcı elementlərin daha da qabarıq şəkildə üzə çıxarılmasına imkan verir. Tərəfimizdən seçilən müqayisəli təhlil metodu Hüseyn Əliyevin istedadının yeni çərçivə və xüsusiyyətlərinin üzə çıxarılması baxımından əhəmiyyətli sayılır. Xronoloji prinsipə riayət edilməsi sənətkarın yaradıcılıq spesifikasında baş verən dəyişikliklərin izlənilməsi aspektindən əhəmiyyətlidir.

Metodoloji əsaslar kimi tarixi-mədəni və tarixi-bədii yanaşma üsuluna üstünlük verilib. Tədqiqatda kompleksli metoddan istifadə edilmişdir, yəni əyani material əhatəli şəkildə təhlil olunmuş, əsərlərin bədii və texniki üsulları öyrənilmişdir.

Tədqiqatın əsas mənbəyini müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat, arxiv sənədləri, kataloqlar, şifahi sorğular, Azərbaycan, rus, fransız və ingilis dillərində kitab, jurnal və qəzet materialları, internet resursları təşkil edir.

**Tədqiqatın hüdudları.** Tədqiqatın hüdudları Hüseyn Əliyev yaradıcılığının zaman və məkan çərçivələrindən irəli gəlir. Zaman çərçivələri XX əsrin 20-ci illərindən 1991-ci ilədək olan müddəti, coğrafi çərçivələr isə rəssamın yaşadığı Azərbaycanı, təhsil aldığı Rusiyanı və yaradıcılıq ezamiyyələrində olmuş ölkələri əhatə edir.

**Tədqiqatın elmi yeniliyi.** İlk növbədə, ondan ibarətdir ki, elmi araşdırmalar zamanı Hüseyn Əliyevin indiyə qədər tədqiq olunmamış rəngkarlıq, qrafika, akvarel-monotipiya əsərləri janrlar üzrə dəqiq qruplaşdırılaraq, onların bədii xüsusiyyətləri təhlil olunmuşdur.

Rəssamın siyasi xadimlərə, eləcə də ailəsinə və dostlarına həsr etdiyi tablolar, mücərrəd kompozisiya quruluşuna malik mənzərələr, akvarel-monotipiyalar, karikatura və qrafik rəsmlər geniş sənətşünas təhlilinə cəlb olunmamış, sadəcə ayrı-ayrı kataloq və məqalələrdə əsas yaradıcılığını tam əhatə etməyən məlumatlar dərc olunmuşdur.

Hazırki tədqiqat işində onlar əhatəli şəkildə öz əksini tapmışlar. Bu tədqiqatdan kənar qalmış əsərlərin üzə çıxarılması həm sənətşünaslıq elminə, həm də Azərbaycan incəsənətinin inkişafına müsbət təsir edəcək.

Eyni zamanda, bundan əvvəlki ədəbi mənbələrdə əsl adları tapılmayaraq şərti adlar verilmiş əsərlərin dəqiq adları müəyyən edilmiş, bu da abstrakt tablolarda əslində nəyin təsvir olunduğuna dair fundamental dəyişikliklərə gətirib çıxarmışdır.

Həmçinin, bir çox əsərlərin təxmin edilərək yazılarda yalnış qeyd olun-

muş texnikalarına yenidən baxılmış, aydınlaşdırılmış və həmin səhv məlumatlara dissertasiyada düzəlişlər edilmişdir.

Elmi işdə Azərbaycan incəsənətinin böyük dövrünü əhatə edən Hüseyn Əliyevin yaradıcılığı əhatəli şəkildə araşdırılıb.

Sənətkarın Azərbaycan incəsənətinə yenilik kimi gətirdiyi akvarel-monotipiya texnikası haqqında ilk dəfə olaraq geniş məlumat verilmişdir.

Rəssamın geniş diapazonlu yaradıcılığı ayrı-ayrı janrlara, eləcə də yaradıcılıq xüsusiyyətlərini səciyyələndirən əsərlərin bədii ifadə formasına görə yarımfəsillərə bölünərək ayrıca təhlil olunmuş və onların yaradıcı nailiyyətləri müəyyənləşdirilmişlər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hazırki tədqiqat Azərbaycan incəsənəti tarixini genişləndirərək təsviri sənətin ümumi inkişafında xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığının əhəmiyyətini, yerini, yaradıcılıq metodunu müəyyən edir. Tədqiqatın nəticələri və müddəaları Azərbaycan təsviri sənətinin zənginliyini, növ və janr müxtəlifliyini və yaradıcılıq üslublarını genişləndirmiş olur.

Tədqiqatın praktik əhəmiyyəti isə rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində rəssam və sənətşünas tələbələrə "Azərbaycan təsviri sənəti tarixi" mövzusunda xüsusi kurslar çərçivəsində tədris oluna bilməsi ilə şərtlənir. Rəssamın yaradıcılıq praktikasına aid müddəalar gənc rəngkar və qrafiklər üçün əməli tövsiyələr rolunu oynaya bilər. Dissertasiya Hüseyn Əliyevin yaradıcılığı haqqında yazılmış elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir şəxs və dissertasiyada toxunulan problemlə maraqlanan geniş oxucu kütləsi üçün dəyərli mənbə vəsaitidir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmiş və kafedranın iclasında müzakirə olunmuşdur. Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 10 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, 5 yarımfəsil nəticə, istifadə olunmuş ədəbiyyat və illüstrasiyalar siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 128 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

**Girişdə** mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqqında məlumat verilir.

**I Fəsil – "Hüseyn Əliyevin yaradıcılığının özünəməxsusluğu və bədii xüsusiyyətləri"** adlanır və rəssamın erkən dövr yaradıcılığına, bu dövr üçün xarakterik olan qrafik rəsmlər, karikaturalar, həmçinin portret, natürmort, məişət və animalistik janrda olan əsərlərinə həsr olunmuşdur. Bu fəsil üç yarımfəsildən ibarətdir. **"Hüseyn Əliyevin yaradıcılığında qrafik rəsmlər və karikaturalar"** adlanan **birinci yarımfəsildə** rəssamın yaradıcılığının ilkin dövründə işlədiyi qrafik rəsm və karikaturaları öz əksini tapmışdır.

XX əsrin uğurlu karikaturaçıları sırasına Hüseyn Əliyevi də daxil etmək vacibdir. Onun karikaturaları yaradıcılığının erkən dövrlərini əhatə edir. Bakı Rəssamlıq Texnikumuna daxil olduqdan sonra o, dövrünün görkəmli maarifçiləri ilə tanış olmuşdu. O, hələ tələbə ikən "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq etməyə başlayır. Rəssam burada Cəlil Məmmədquluzadə kimi böyük mütəfəkkirlə tanış olur və onun əsərlərindən, mütərəqqi fikirlərindən çox bəhrələnır.

Hüseyn Əliyevin yaradıcılıq fəaliyyəti çoxşaxəli və rəngarəngdir. O, yaradıcılığa mənzərə janrı ilə qədəm qoysa da onun yaradıcılığının ilk çiçəklənmə dövrü karikatura ilə başlayır. Hüseyn Əliyevin mətbuata gəlişi 1929-cu ildə "Molla Nəsrəddin" jurnalının 2-ci nömrəsində çap olunmuş "Köhnə əlifbanın dəfni", "Şuşada pioner dəstəsi, yaxud İran qoşunu" adlı karikaturalar ilə baş tutdu və bundan savayı sözü gedən mətbuat orqanında aktual mövzularda bir sıra əsərləri ardıcıl dərc olunmağa başladı.

Rəssamın 1929-cu ildə "Molla Nəsrəddin" jurnalının 5-ci nömrəsində dərc olunmuş digər bir karikaturası nəzəri xüsusilə cəlb edir. Burada hələ molla rejimindən qalma qayda-qanunlar kəskin tənqid olunur. Karikaturanın adı "Çadramı saxla, dərsdən sonra götürəcəyəm"-dir. O vaxt mollaların qoyduqları qatı xurafatçı qayda-qanunlara riayət etməli olan avam rəiyyətin necə bir gülünc vəziyyətə düşməsi karikaturada təsvir olunur. Çadra taxmasalar mollaların fitvası ilə cəmiyyət tərəfindən daşa basılmaq və ya qamçılanmaq təhlükəsindən qorxub məcbur qalaraq çadraya bürünən qadınlar və Şura hökumətinin məktəblərdə qadağan etdiyi çadra taxma ənənəsi arasındakı ziddiyyət karikaturanın fabulasını təşkil edir. Xalq rəssamı

cəmiyyətdəki bu cür çatışmazlıq və boşluqları tənqid etməyə çalmışdır. Bu karikatura ilə qadınları, eləcə də, cəmiyyəti mollaların fitvasına uymamağa çağırmışdır.

Hüseyn Əliyev 1931-ci ildən başlayaraq "Kommunist" qəzetində əvvəlcə siyasi xarakter daşıyan karikaturalarla oxucuların diqqətini cəlb etdi. Daha sonralar isə öz yaradıcılığını fərqli mövzu və janrlarda davam etdirdi. Rəssamın qəzetdə çap olunan ilk belə siyasi karikaturaları faşizm, eləcə də, Yaponiyanın Mancuriyaya təcavüzündən bəhs edirdi.

1952-1987-ci illər arasında “Kirpi” jurnalında xalq rəssamının “Dövlət malını talayanlar”, “Tənqidi boğanlarla mübarizə”, “Elmdə tənəzzül”, “Məhsul yığımının pis təşkil olunması”, “Alkoqolizm” və müxtəlif adlar daşıyan onlarla karikaturaları çap olundu. Onun alleqorik əsərləri sırasında cəhaləti, acgözlüyü qamçılayan karikaturaları, müxtəlif məzmunlu təsvirləri də vardır.

1976-cı ildə “Kirpi” jurnalında çap olunmuş "Taksi sürücüsü" karikaturası sadə kompozisiya quruluşu ilə fikrin aydın çatdırılması səbəbindən böyük maraq doğurur. Yığcam kompozisiyanın lakonik ideyası və kəskin mövzusu karikaturanın xarakterini təyin edir. Xalq rəssamının bir çox başqa satirik əsərlərində olduğu kimi burada da karikatura ideyanın açılmasına kömək edən qısa mətnlə müşayiət olunur.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar incəsənət xadimi Bayram Hacızadə xalq rəssamı Hüseyn Əliyevin "Kirpi" jurnalında dərc olunan əsərləri haqqında qeyd edir: “Hər zaman özünün məhsuldar fəaliyyəti ilə seçilən H.Əliyev “Kirpi”nin birinci nömrələrindən başlayaraq jurnalla sıx əməkdaşlıq etmiş, dövrü üçün aktual problemləri işıqlandırmağa müvəffəq olmuşdur. Bu dövrün satirik qrafikası mövzu rəngarəngliyi ilə seçilirdi desək yanılmarıq. Ölkədə, cəmiyyətdə ən vacib ictimai-siyasi hadisələrə münasibət bildirən rəssam, xalqın yaradıcı əməyini öz əsərlərində təsvir edir, cəmiyyətin inkişafına mane olan yabançı ünsürlərə qarşı mübarizə aparırdı”.[11]

Qeyd etdiyimiz kimi, Hüseyn Əliyevin mətbuatda yaradıcılığı qrafik rəsmləri və karikaturaları ilə səciyyəvidir. Onun karikaturalarında modernist ideyalara rast gəlinir. O, öz qrafik rəsm və karikaturalarında əsasən, cəmiyyətdə baş verən siyasi hadisələrə qarşı öz münasibətindən çıxış edərək, simvolizə olunmuş bədii təsvir vasitələri ilə ideyalarını həyata keçir-

[11] Hacızadə B. "Azərbaycanın xalq rəssamı Hüseyn Əliyevin satirik qrafikası" // “Mədəniyyət dünyası”. Elmi-nəzəri məcmuə. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XXV buraxılış, Bakı, 2013. s. 180

mişdir.

**İkinci yarımfəsil "Xalq rəssamının portret yaradıcılığında xarakterin özünəməxsus tərənnümü"** adlanır. Bu yarımfəsildə Hüseyn Əliyevin portret janrında müxtəlif texnikalarda işlədiyi əsərlərində personajların psixoloji xarakteristikasının müəyyən olunması və təhlili verilmişdir.

Hüseyn Əliyev, eyni zamanda, böyük portret ustası idi və bu sahədə yüksək nailiyyətlər əldə etmişdi. Əksər portret əsərlərində rəssam müraciət etdiyi köməkçi detallar vasitəsilə qəhrəmanların kimliyinin təyin olunmasını asanlaşdırmışdır. Onun çəkdiyi portretlərin hər biri insanın daxili dünyasını əks etdirə bilirdi. Bu portretlərdə əks olunan şəxslərin hansı psixoloji durumda olmaları sifət cizgilərindən açıq aydın sezilir. Məsələn, əlləri qoynunda dayanmış "Hüseyn Cavidin portreti" adamda elə bir təəssürat yaradır ki, o, qayğılarla aşıb-daşan bir həyat sürür. Böyük şairin duruşu, baxışı, aralıda görünən Araz çayı, İlandağ tamaşaçıya onun harada olduğunu xəbər verir.

Hüseyn Əliyevdən bizə yadigar qalan bəzi portretlər tarixilik baxımından böyük əhəmiyyətə malikdir. Bu janr rəssamın yaradıcılığında önəmli yerə malikdir. Portret janrında işlədiyi bir sıra rəsmlər diqqətəlayiqdir.

Rəssama şöhrət gətirən portret görkəmli ədib Mirzə Fətəli Axundova həsr olunmuşdur. Rəssam onu çox gənc ikən çəksə də, mükəmməllik və təbiilik portretdə öz əksini tapmışdır. 1939-cu ildə kətan üzərində yağlı boya ilə işlənən bu əsərdə işıq-kölgə effekti, personajın üzündəki ifadə, görkəmli dramaturqun dövrünün dəbinə uyğun geyim haqqında məlumat təfərrüatı ilə, ustalıqla tamaşaçılara çatdırılmışdır.

Hüseyn Əliyev Mirzə Fətəli Axundovun fəlsəfi fikirlərini və düşüncələrini bəyənirdi. Ona qarşı olan rəğbət və hörmət hissindən irəli gələrək rəssam böyük mütəfəkkiri canlandırmışdır. Mirzə Fətəli Axundov ensiklopedik bir şəxsiyyət idi və həmişə dini fanatizmi, xurafatı kəskin tənqid edən bir mütəfəkkir idi.

XX əsrin 30-cu illərinin sonlarında çəkdiyi Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının, Mirzə Ələkbər Sabirin, Əbdürrəhim bəy Haqverdiyevin portretləri sənət ustasını daha da məşhurlaşdırdı. Bundan savayı Hüseyn Əliyev bu janrda onlarla görkəmli şəxsiyyətlərin, alimlərin, sənət və zəhmət adamlarının, eyni zamanda ailə üzvləri və tanışlarının da portretlərini yaratmışdır. Onun portretlərinin demək olar ki, əksəriyyəti mətbuatda dərc olunmuşdur. Hələ tələbə olarkən və sonrakı illərində qrafika texnikasında çəkdiyi sıravi insanların portretləri də var. Sənətkar bu əsərlərində qəhrəmanların daxili aləmini sifətlərinin cizgilərində və gözlərində təcəssüm et-

dirmişdir.

Hüseyn Əliyevin 1929-cu ildən tanıdığı və böyük hörmət bəslədiyi şəxsiyyətlərdən biri də "Molla Nəsrəddin" jurnalının təsisçilərindən biri olan, milli qürur hissini öz millətinə aşılamağa çalışan, yaşadığı cəmiyyəti mövhumatın məngənəsindən qurtarmağa səy göstərən böyük dramaturq Cəlil Məmmədquluzadədir. Hüseyn Əliyevin fırçasının növbəti qəhrəmanı, məhz, bu şəxsiyyət olmuşdur. C.Məmmədquluzadə kimi böyük mütəfəkkirin portretini canlandırmaq olduqca məsuliyyətli idi. H.Əliyev uğurlu kompozisiya quruluşu, məharətli bədii ifadə vasitələri sayəsində onun öhdəsindən uğurla gələ bilmişdir.

H.Əliyev Azərbaycan tarixini, incəsənətini, ədəbiyyatını sevən bir şəxsiyyət kimi hər zaman görkəmli simaların obrazlarını özünəməxsus həssaslıqla yaratmışdır.

Hüseyn Əliyev portretlərinin məşhur qəhrəmanlarından biri də təvazökar, lakin Azərbaycan ədəbiyyatına böyük töhvələr bəxş etmiş yazıçı Cəfər Cabbarlıdır. O, həqiqət axtarışında olan əvəzolunmaz bir düha idi. 1939-cu ildə yağlı boya ilə kətan üzərinə köçürülmüş bu rəsmdə əsərin qəhrəmanı olduğu kimi təsvir olunmuşdur. Böyük Azərbaycan dramaturqu C.Cabbarlının obrazını yaradarkən rəssam onun xarici görkəmi ilə təzad yaradan daxili aləminin açılmasında gülümsəyən səmimi simasını təsvir etməklə daxili dünyasının saflığını və zənginliyini üzə çıxarmağa çalışmışdır.

Rəssamın portret yaradıcılığında qədim və çox tutumlu klassik poeziyamızın fəlsəfi qatına özünəməxsus çoxmənalılıq bəxş edən Məhəmməd Füzulinin obrazı da mühüm yer tutur. Natural insan boyunda olan bu əsər kətan üzərində yağlı boya ilə düz 8 il ərzində ərsəyə gətirilib. Üzündən müdriklik yağan, ağ saqqallı, əynində ağ əba və əlində isə bir kitab ilə yeriyən anda təsvir olunan böyük şair tamaşaçıların və heyranlarının xəyalında canlandırdıqları M.Füzuli obrazı ilə üst-üstə düşürdü. Füzulinin fonunda çay, ağaclar və uzaqdan görüntüyə gətirilən dağlar təsvir olunub. Çayın o tərəfində çəkilən xurma ağacları ilə rəssam şairin Kərbəlada olduğuna işarə etmişdir. Bundan başqa, səmadakı buludlar və onların suya düşən əksi xalq rəssamının öz peşəsində necə mahir olduğunu bir daha sübut edir.

Ümumiyyətlə, Füzuli obrazına bir çox görkəmli rəssamlar müraciət etmişlər. Məsələn, Səttar Bəhlulzadə "Füzulinin porterti", Mikayıl Abdullayevin "Füzuli", Tofiq Ağababayevin "Füzuli – Bismillahi-Rəhmanir-Rəhim" və s. əsərləri misal göstərmək olar. Hər bir rəssam öz əsərində özünəməxsus təsvir formalarından istifadə edərək Şərqin böyük mütəfəkkirinin xarakterini açmağa çalışmışdır.

Müxtəlif rəssamların yaratdıqları Füzuli obrazı üzərində müqayisəli təhlil hər bir rəssamın mənəvi aləminin açıqlanmasında özünəməxsus fərdi xüsusiyyətlərlə, xüsusi ifadə vasitələri ilə çıxış edərək fərqli yanaşma tərzinə malik olduqlarını göstərir. Məsələn, T.Ağababayevin M.Füzuliyə həsr olunmuş əsərində tutqun, qaranlıq fonda, onun şam işığında nura qərq olunmuş ağ libaslı, qəmgin obrazını, əllərini çənəsinə dayayaraq fikrə getmiş düşüncəli simasını görürük. Burada tamaşaçı içindəki ağrı-acıları, boş vərəqə köçürmək üçün fikrə dalmış Füzulinin kədərli obrazı ilə qarşılaşır.

Başqa bir misal, Sadıq Şərifzadənin 1958-ci ildə yaratdığı "M.Füzulinin portreti"nə diqqət yetirdikdə, burada daha fərqli yanaşma tərzini görürük. Monumental həll edilmiş əsərdə daxili yaşantılar daha emosional şəkildə çatırılmışdır. Ayaq üstə təsvir olunmuş dahi şairin obrazında, nisbətən əzab yaşayarkən deyil, onlardan çıxış yolunu axtaran məğrur sima gözlərimizin önündə canlanır.

Hüseyn Əliyevin yaratdığı "Füzuli" porterti isə şairi əlində kitab düşüncəli halda yeriyərkən təsvir edərək maraqlı ifadə tərzi ilə diqqəti cəlb edir. Hüseyn Əliyevin Füzuli obrazı tamaşaçıya şairin daim düşüncələr aləminə bələndiyini, onun qəlbini didib-dağıdan suallara cavab axtarmağını anladır. Obrazın çöhrəsində düşüncələrə dalmış, sanki elə bu saat qələmə aldığı şerinin təsirindən hələ də oyanmamış, arzularına yetişmək niyyətindədir. Bu mənada şairin həyata ümidlə baxdığından soraq verir.

Rəssamın portret əsərlərində də rəng, incə lirika və həyatilik ilə aşılanmış inandırıcı obrazlarla, onların psixoloji aləmi ilə bir harmoniya yaratmışdır.

Hüseyn Əliyev portret janrı sahəsində öz fəaliyyətini davam etdirərək, tanınmış əmək, mədəniyyət və tarixi şəxslərin portretlərindən ibarət bir qalereya yaradıb. Onun portretləri sadə və realdır. Bizə gəlib çatmış işlər rəssamın yalnız portret oxşarlığını əldə etmək cəhdlərini deyil, eyni zamanda modelin xarakterini qabartmaq xüsusiyyətinə də malik olduğunu üzə çıxarır. Rəssam tərəfindən yaradılmış obrazlar realistik, fərdi və çox rəngarəngdir.

Yorulmadan çalışan rəssam həmişə xarakter axtarışında olmuşdur. Onun fırçasından çıxan portretlər dəfələrlə Bakıda, Moskvada və keçmiş sovetlər ölkəsinin müxtəlif şəhərlərində, xarici ölkələrin rəsm qalereyalarında nümayiş etdirilmiş və layiqincə qiymətləndirilmişdir. Əsərlərində özünəməxsusluğa və təkraredilməzliyə, milli ənənələrə sadiqlik Hüseyn Əliyevin portretlərinin əsas qayəsini təşkil edir.

**"Hüseyn Əliyevin yaradıcılığında natürmort, məişət və animalis-**

**tik janrlar"** adlanan **üçüncü yarımfəsildə** rəssamın adları çəkilən janrlardakı əsərlərindən bəhs olunmuşdur.

Təsviri incəsənətin tarixi inkişaf prosesində onun müxtəlif janrları əmələ gəlmişdir: natürmort, mənzərə, portret, məişət, tarixi və s. Bu bölgünün əsasında əsərə, müəyyən mövzu və obrazlar dairəsinə gerçəkliyin müxtəlif istiqamətlərindən yanaşılması durur.

Hüseyn Əliyevin ilk fırça təcrübəsi 12 yaşında ikən çəkdiyi mənzərə və portretlə başlamış, ilk natürmortu isə 1932-ci ildə sulu boya ilə işlənmişdir. 21 yaşlı rəssam üçün fakturanın bu qədər dərk edilməsi və olduqca ümumi cizgilərlə belə dolğun təsvir etmə bacarığı onun gələcəkdə necə böyük sənətkar olacağından xəbər verirdi. Gənc rəssam adi əşyalardan belə gözəl sənət əsərləri təqdim edə bilmişdir. O ilk natürmortunda təsvir etdiyi elementlərdən olan şəffaf stəkanın və suyun effektini, konserv qutusunun dəmir səthi üzərinə aydınca əks olunmuş predmetləri və onların fakturasını böyük ustalıqla tamaşaçıya çatdıra bilmişdir.

Predmet seçimində H.Əliyev, kifayət qədər təvazökarlıq nümayiş etdirirdi. Onun natürmortlarında bahalı əşyalar nəzərə çarpmır, bu da rəssamın xarakterinin sadəliyini bir daha sübut edir. H.Əliyev yaradıcılığının sonrakı mərhələlərində də natürmort janrına müraciət etmişdir. Belə əsərlərindən biri 1965-ci ildə sulu boya ilə işlədiyi "Royalın üstündə alma" adlı natürmortdur. Bu tabloya sadəcə natürmort kimi baxmaq olmaz. Çünki rəssam burada mükəmməl fantaziyasını ortaya qoymuşdur. Belə ki, əsərdə təsvir olunan predmet ilk baxışda hansısa səma cismini xatırladır. Diqqətlə izlədikdən sonra bu predmetin parlaq səth üzərinə əksi düşmüş alma olduğu anlaşılır. Səma cisimlərinə böyük maraq göstərən rəssam aya bənzətdiyi almanı əsərin adından da göründüyü kimi royalın üzərində təsvir etmişdir. Almanın üzərindəki ləkələr və bəlkə də, su damlaları ayın səthində görünən kraterlərə oxşayır. Əslində, bu əsərlə rəssam tamaşaçılarına sanki bir mesaj göndərmişdir; hər hansı bir predmetə və yaxud həyat hadisəsinə təkcə baxmaq kifayət deyil, onu görmək əsas şərtdir.

Bu günlərdə belə tipli sənət əsərləri müxtəlif texnikalarda, xüsusilə də kompüter qrafikası ilə yaradılaraq KİV-də tez-tez yayımlanır. Lakin qürurla deyə bilərik ki, Hüseyn Əliyev bu effektə - "ikili baxış" üsulunda əsərlər yaratmağa hələ XX əsrin 60-cı illərində nail olmuşdur[12].

Xalq rəssamının oxşar kompozisiyaya malik olan əsərlərindən biri də "Yaşıl alma" natürmortudur. Əvvəlki tabloda olduğu kimi bu əsərdə də

[12] Sadıxova S. Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığında natürmort janrı "Elmi Əsərlər, Naxçıvan" NDU, "Qeyrət" 2017 №5 (86) səh.151-154

eyni konsepsiya özünü göstərərək ilk baxışda tamaşaçıda suyun üzərinə əksi düşmüş ay təəssüratı yaradır.

H.Əliyevin natürmortlarının parlaq kontrastlı rəngləri, müxtəlif çeşidli fakturaları əsas predmet və məhsulları neytral fondan ayıraraq onların dekorativ keyfiyyətlərini ortaya çıxarır.

H.Əliyev öz yaradıcılığında artıq bəhs etdiyimiz janrlarla yanaşı süjetli kompozisiyalara, məişət mövzusuna da yer vermişdir. Məişət janrı insanların gündəlik həyatını, sosial və milli əxlaqi sistemini, yaşam tərzini, məişəti özündə ehtiva edir. Azərbaycanda da bir çox rəssamların əsərlərində bu janr əhəmiyyətli yerə malikdir.

1950-ci illərdən başlayaraq H.Əliyev konkret məişət hadisələrinə müraciət edərək xalqın həyatından götürülmüş səhnələr yaradırdı. "Dalaşıblar", "Çobanlar", "Bizim həyətdə" (2 variantda), "Sülhsevər torpaq" triptixi, "Nabran", "Dəniz" adlı əsərlər onun məişət mövzulu tablolarına və süjetli kompozisiyalarına nümunədir.

Gündəlik həyatın ən müxtəlif tərəflərinə müraciət müxtəlif janrlı təsvirlərin, bir-birindən fərqli tiplərin formalaşmasını şərtləndirmişdir. H.Əliyev insan və heyvanlar arasında baş verən mübarizəni, bəzən isə, yalnız insanlar arasındakı psixoloji konflikti təsbit etməyə meyilli idi. Onun ilk belə əsərlərindən 1954-cü ildə sulu boya ilə çəkdiyi “Dalaşıblar” adlı süjetli kompozisiyadır. Burada nə vaxtsa dalaşdıqlarından bəri ilk dəfə qarşı-qarşıya gələn, amma hələ də bir-birinin üzlərinə baxmağa cürət etməyən iki gənc təsvir olunmuşdur. Əsərlərində həmişə xarakter axtarışında olan H.Əliyev bu psixoloji durumu personajın jestləri, üzlərinin ifadələri vasitəsilə tamaşaçıya məharətlə çatdırmışdır. O, xüsusilə də bu tabloda mimika və jestlərin tamaşaçıya aydın çatdırılmasında iti müşahidəçilik qabiliyyəti sərgiləyir.

"Çobanlar", "Bizim həyətdə", "Nəğməli torpaq", "Atlı" adlı məişət səhnələrində rəssamın dəsti-xətti nəqledici və ahəstədir. Bu əsərlərdə mövzu dərinliyinə rast gəlinmədən məişətin tematikasına lirik yanaşma özünü göstərir. Onların kompozisiyaları tabloda iştirak edən personajların qarşılıqlı münasibəti və xarakterlərin incə təsviri üzərində qurulmuşlar. Haqqında bəhs edilən əsərlər özünəməxsus poetik cazibəsi ilə "Zəhmli torpaq", "Səmada əlbəyaxa", "Qisas", "Heyvanlar da narahatdır" adlı emosional tablolardan fərqlənir.

Görkəmli fırça ustasının məişət tablolarının iştirakçıları nüfuzlu şəxslər deyil, sadə kəndlilər, zəhmətkeşlər və çobanlardır. Bu cəhətlə xalq rəssamının necə sakit təbiətli, təvazökar insan olmasına şahid oluruq.

Maraqlı texnikada həll edilmiş əsərlər sırasına “Çobanlar” adlı məişət

tablosu da daxildir. Dəmir üzərində yağlı boya ilə ərsəyə gətirilən bu əsər çobanların istirahət səhnəsini təsvir edir. Çobanlar səhnəsi rəssam tərəfindən sadə və artıq öyrəşilmiş gündəlik kənd həyatının bir epizodunu özündə əks etdirən kompozisiya kimi düşünülmüşdür. Burada rəssam təbiətlə insanı harmonik vəhdətdə təsvir etmişdir.

H.Əliyevin məişət səhnələrinin qəhrəmanları çox vaxt qayğıdan, dərd-qəmdən uzaq, əyləncəyə meyilli insanlardır. Onun "Bizim həyətdə", "Sülhsevər torpaq", "Nabran" əsərlərində nikbinlik, həyatsevərlik hökm sürür.

İkifiqurlu və on iki fiqurlu “Bizim həyətdə” adlı iki əsərdən ibarət kompozisiyada mehribancasına bir yerə yığışmış, həyətdə masa arxasına toplanmış müasirlərinin obrazlarına müraciət etmişdir. Birinci tabloda ikifiqurlu kompozisiyada gənclərin romantik rəqs səhnəsini təsvir edən Hüseyn Əliyev ikinci tabloda çoxfiqurlu kompozisiyada yaxınlarını, dost-tanışlarını birləşdirmişdir. Rəssamın incə, lirik, şairanə əhvalı ilə dolu bu süjetli tablolar açıq səma altında şən rəqsləri, yığıncaqları təsvir edir. Rəssamın iki variantda işlədiyi "Bizim həyətdə" adlı bu əsərlərində obraz həlli dəqiq deyildir. Eyni gündə işlədiyi hər iki əsərdə rəssam, əsasən cigiləri ümumiləşdirərək obrazların şərtiliyinə üstünlük vermişdir. Burada onun əsas məqsədi ümumi lirik-romantik və yüksək əhvalı önə çıxarmaq olmuşdur. Bəlkə də, rəssam bu əsərlə öz hisslərini ifadə etmək, xatirələrini əbədiləşdirmək istəmişdir. Rəngli flomasterlərlə çəkdiyi bu tablolarda rəng, cizgi və konturların nikbinliyi əsərdəki yüksək əhval-ruhiyyə ilə yaxından səsləşir.

Rəssamın fikrincə, insan zövq aldığı poetik aləmdən ayrılmazdır və bu məmnuniyyət, belə mövzular, onun gözəllik, həyatın müntəzəm sakit axarı, insanın xoşbəxtliyi haqqında təsəvvürlərini özünəməxsus şəkildə ifadə edən əsərlərində öz əksini tapır. Bütün bu cəhətlər H.Əliyevi Azərbaycan rəngkarlığının lirik-poetik tərzdə işləyən böyük rəssamkarı sırasına daxil edir.

Yurda bağlılığını əsərlərində tez-tez əks etdirən xalq rəssamı 1977-ci ildə “Sülhsevər torpaq" adlı triptix işləmişdir. Triptixin mərkəzi hissəsini iri planda verilmiş çoban və keçi fiquru təşkil edir. Rəssam bu hissəni “Sülhsevər torpaq” adlandırmaqla insan və heyvanlar aləminin sülh və dostluq şəraitində keçindiyini vurğulamağa çalışmışdır. Buna zidd olaraq rəssam həyatın, təbiətin amansız üzünün də olduğunu “Zəhmli torpaq” adlı birinci hissədə göstərmişdir. Triptixin bu hissəsində belinə əfi ilan dolanmış bir qoca təsvir olunmuşdur. Qoca həyəcan və qəzəblə daşı onu boğmağa çalışan ilanın başına endirmək üzrədir.

H.Əliyev kəskin hərəkətə cəhd edən dramatik gərginlik anını tutaraq plastik dəqiqlik və aydınlıla seçilən kompozisiya qurmaq bacarığı ilə tamaşaçını heyran edir. O, fiqurların konturlarını açıq səma altında üzə çıxararaq onları əhatə edən mühitlə orqanik surətdə əlaqələndirir.

Triptixin süjeti insanlarla təbiətin başqa canlı üzvləri olan heyvanların münasibətinə həsr olunub. Əsərin ideyasına görə insan və heyvanlar nə qədər sülh şəraitində yaşasalar da, bəzən sağ qalmaq uğrunda mübarizə aparmaq zərurəti qaçılmazdır.

Belə mübarizə səhnələrinin baş verdiyi yer açıq səma altında təbiətin özü idi. Uzaqdan görünən İlandağ baş verən bu hadisənin Naxçıvanda cərəyan etdiyinə işarə edir.

Triptixin son üçüncü hissəsində yenə də sakit və gündəlik həyat tərzi hökm sürür. “Nəğməli torpaq” adlanan bu hissədə mal-qaranı otlağa aparmış gənc çoban təsvir edilmişdir. Heyvanlar çoban tütəyinin sədaları altında bir yerə toplanmışlar. Uzaqdan bir-birinin ardında yerləşən dağlar, təpələr və düzənliklər vasitəsilə əsərin kompozisiyasını müstəvi üzərində qurmağa nail olan Hüseyn Əliyev bir-birinə uyumlu yumşaq rəng çalarlarından istifadə etməklə tamaşaçının əhval-ruhiyyəsinə sakitlik gətirən bu əsərin xoş təsir gücünü daha da artırmışdır.

Əyləncə və istirahət səhnələri xalq rəssamının məişət tablolarının aparıcı mövzusunu təşkil edirdi. Onun rəngli flomasterlə işlədiyi “Nabran”, “Dəniz” adlı oxşar süjetli kompozisiyaları isti yay günlərində dəniz kənarında istirahət səhnələrini canlandırır. Qızmar günlərdə görüntüyə gətirilən süjetlərin təsvirində rəssam haqlı olaraq əlvan və isti rənglərdən istifadə etmişdir.

Hüseyn Əliyevin müraciət etdiyi süjetli kompozisiyalar arasında atlı təsvirlərinə də rast gəlinir. Digər kompozisiyaları ilə müqayisədə ən kiçik ölçülü olan “Atlı” adlanan iki əsəri monoxrom rəngi ilə digərlərindən fərqlənir. Eyni süvarini müxtəlif istiqamətlərdən - həm arxadan, həm yandan təsvir edən rəssam burada, əsasən hərəkət, poza və siluetə üstünlük vermişdir. Atlının fiquru arxadan təsvir olunsa da, onun papağından və çiyinləri dik olan qalın üst geyimindən bu geyimin yapıncı, atlının isə çoban olduğu anlaşılır.

Yaradıcılığını araşdırarkən məlum olur ki, 1970-ci illərdə müxtəlif janrlı əsərlərdə rəssamın tematikası genişlənir, yaradıcılığında bəşəri süjetlərlə yanaşı animalistik janrda olan təsvirlərə də rast gəlinir. Onun “Balıq”, “Ağ ayı”, “Toyuq”, tovuzquşunu təsvir etdiyi “Göygöl”, "Ceyranlar çəmənlikdə", "Geri mağaraya", "Qartal zirvələrdə", "Səmada əlbəyaxa" adlı animalistik əsərləri vardır.

Hüseyn Əliyev bütün yaradıcılığı boyunca yeni texnika və müxtəlif texniki-bədii effektlər axtarışında olmuşdur. Bu yaradıcı axtarışlardan biri də 1970-ci ildə çəkdiyi natürmortda olduğu kimi həmin ildə işlədiyi “Balıq” animalistik tablosunda da özünü göstərir. Rəsmlərdən görünür ki, digər qarışıq texnikalardan fərqli olaraq bu əsərlərdə H.Əliyev əvvəlcə əsas fiquru sulu boya ilə dəqiq işləmiş sonra isə monotip texnikası ilə fiqura və ümumilikdə əsərə bulanıq effekt vermişdir, bununla da balığın sualtı görünüşdə təqdim olunması təəssüratını yarada bilmişdir. Sanki bu əsərdəki predmetlərə su üzərindən baxılır. Görünür, məhz bu üsula 1970-ci ildə daha çox üstünlük vermiş və bir neçə dəfə öz fırçasını bu faktura və texniki effektdə sınamışdır.

“Ağ ayı” əsərində rəssamın əsas məqsədi ağ ayını yaşadığı mühitə uyğunluğunun göstərilməsi olmuşdur. Rəssamın fırçası ilə ağ ayı təbiətə komuflaj edilmişdir. Əsərin əsas mövzusu ağ ayı olsa da o, yalnız tablonu diqqətlə gözdən keçirdikdən sonra qarla örtülmüş qayalar arasında nəzərə çarpır.

“Kürün sahilində” əsəri animalistik janra gözəl nümunə ola bilər. Rəssam əsərdə leyləyə və mənzərəyə tablonun kompozisiyasında eyni dərəcədə bərabər yer ayırmışdır. Belə ki, mənzərə iri planda, fonda, özü də saya tərzdə verilsə də, realistik təsvir olunmuş leylək fiquru ön plana çəkilmişdir. Burada Kür çayı və digər elementlər əvvəlcə monotipiya texnikasında yaradılmış, kağız şüşədən ayrıldıqdan sonra isə quaş və sulu boya ilə monotipiyanın üzərində leylək təsviri çəkilmişdir. Çay kənarında gəzən leyləyin tək fiquru, tablodakı lirizmi, natural aləmdə gözəllik anlayışını önə çəkir.

Rəssamın yaratdığı monotipiyaların bəziləri təsadüfən hansısa bir obrazı xatırladırdı. Daha sonra onun üzərində cüzi dəyişikliklər edərək o, natamam qalmış obrazı tamamlayırdı. Bu cür obrazlardan biri monotipik üslubda yaratdığı toyuqdur. 1972-ci ildə çəkdiyi bu monotipiyaya sonradan dimdik və pipik əlavə etməklə əsəri tamamlayaraq öz fantaziyasını sərgiləmişdir.

Bu tip monotipiyalarından biri də 1979-cu ildə yaratdığı “Ceyranlar çəmənlikdə” adlı əsəridir. Əsərdə ceyran və balası otlaqda otlayır. Əvvəlki animalistik əsərlərdən fərqli olaraq ceyranların təhlükədən xəbərsiz sakit rəvan həyat tərzi diqqətə çatdırılır. Müəllif fonu və ətrafı saya işləyərəək diqqəti realistik üslubda işlənmiş ceyranların üzərində cəmləmişdir.

"Göygöl" H.Əliyevin 1979-cu ildə sulu boya texnikası ilə sürətli yaxılarla çəkdiyi animalistik əsərlərdəndir. Tovuzquşunu təsvir etdiyi bu tablo, görünür, rəssamın Göygölə səfəri zamanı rastlaşdığı görüntünü yerindəcə

fırçaya alması nəticəsində yaranmışdır.

Sulu boya ilə işlədiyi “Qartal zirvələrdə” əsərində rəssam adı çəkilən quşa fərqli yanaşmışdır. O, qartalın yırtıcı xislətini deyil, zirvələri fəth edən vüqarlı, güclü və məğlubedilməzlik xüsusiyyətlərini vurğulamışdır.

Hüseyn Əliyev hərdən qarışıq texnikadan istifadə edərək müəyyən bir elementi sonradan monotiplərə əlavə edirdi. Bu, çox vaxt ya hansısa heyvan, ya da ağac olurdu. O, monotipiyalarında at, ceyran, pələng, ayı, qartal və başqa heyvan və quş rəsmlərindən istifadə etmişdir. Onun bu qəbildən olan ən məhşur əsərlərindən biri 1982-ci ildə yaratdığı “Geri mağaraya” adlı monotipiyasıdır. Əsərdə rəssam real təsvir etdiyi pələngi monotipik üslubda yaratdığı şərti mağaraya salır. Monotipiyada parlaq və sarımtıl işıqlı yer mağaranın girişi, qara yerlər isə mağara divarlarını xatırladır. Təsadüfən yaranmış bu cür fantaziyaya isə əlavəni Hüseyn Əliyev mağaraya qayıdan bir pələnglə vermişdir.

"Yaşamaq uğrunda mübarizə" prinsipi xalq rəssamının “Səmada əlbəyaxa” adlı əsərində özünü qabarıq şəkildə göstərmişdir. Bu təbloda səmada bir-biri ilə boğuşan qartal ilə ilan təsvir olunmuşdur. Apardığımız son araşdırmalardan bizə aydın oldu ki, İlanı ovlarkən öz ovunun qurbanına çevrilən qartal burada rəssamın özünün bədii obrazını, ilan isə 1984 cü ildə onun düçar olduğu xəstəliyi simvolizə edir.

H.Əliyev insan və heyvanlar arasında və yaxud da, heyvanların bir-biri ilə vuruşması səhnəsinin təsvirində mahir idi. O, bəzən heyvanların da insanlar qədər həssas olduğunu animalistik əsərlərində göstərməyə çalışmışdır. Bu baxımdan “Qisas” əsəri xüsusi maraq doğurur. Tabloda uzanmış pələngin qarnını buynuzu ilə yırtan öküz təsvir olunmuşdur. Əsərin adından da göründüyü kimi, öküz pələng tərəfindən parçalanmış balasının intiqamını almaqdadır. Bu əsərdə rəssam qarşılıqsız zülmlə barışa bilmir. Onun fikrincə heç bir zülm cəzasız qalmır.

Təbiəti sevən, heyvanlara mərhəmət duyan Hüseyn Əliyevin bu təəssübkeşliyi “Heyvanlar da narahatdır” adlı plakat xarakterli tabloda da öz əksini tapır. 1987-ci ildə kətan üzərində yağlı boya ilə fırçaya aldığı bu əsərdə kompozisiyanın yuxarı hissəsində ağacın budağında vahiməyə düşmüş balalarını qoynuna qısmış meymunlar təsvir olunmuşlar. Bu vahimənin səbəbini isə rəssamın təcridetmə üsulu ilə kompozisiyanın gur hissəsindən ayırdığı uzaqdan görünən ağır artilleriya maşını ilə izah etmək olar. Tablonun ideyasına görə müharibə nəinki insanları, hətta heyvanları da narahat edir. Bu əsər vasitəsilə rəssam insanları sülhə səsləmişdir.

Bir tabloda baş vermiş və yaxud bundan sonra baş verəcək bir hadisəni təsvir etmək üçün bəzən çox da geniş obyektiv təsvirlərə gərək olmaya bi-

lər. Bunun üçün rəssamın professional təsvir gücünə malik olması kifayətdir. Azərbaycan xalq rəssamı Hüseyn Əliyevin məharəti bunun da öhdəsindən uğurla gəlmişdir.

Birinci fəslin üçüncü yarımfəslində "H.Əliyevin yaradıcılığında natürmort, məişət və animalistik janrlar"a dair araşdırmalar belə nəticə verdi ki, o, ən sadə mövzulu əsərlərində belə bəşəri ideyalarla çıxış etmişdir. Məhz, bu səbəbdəndir ki, onun əsərləri hər dövr üçün aktual və ölməzdir.

**"Hüseyn Əliyevin mənzərə janrındakı əsərlərinin bədii həlli"** adlandırılmış **II Fəsil** iki yarımfəsildən ibarətdir. **"Rəssamın realist mənzərə janrında icra etdiyi əsərlər"** adlı **birinci yarımfəsildə** mənzərə işlərində üslubun realizmi və milli təbiət motivlərindən lazımı qədər istifadə edilməsi ön plana çəkilmişdir.

Təbiət təsvirləri sənətkarın yaradıcılığının əsas xəttini təşkil edir. Hüseyn Əliyevin yaradıcılığına nəzər yetirsək, onun mənzərə janrına tez-tez müraciət etdiyinin şahidi olarıq. Doğma Azərbaycanın hər guşəsinə səfər edən sənətkarın dəyərli mənzərə tablolarında Naxçıvan, Zəngəzur, Kəlbəcər-Laçın, Bakı-Abşeron, Gəncə-Göygöl, Lənkəran, İsmayıllı və digər bölgələrin füsunkar təbiətinin gözəllikləri əks olunmuşdur. Yaz, şəfəq, dağlar, dəniz, çay, göl və meşə onun ən çox müraciət etdiyi mövzular idi.

Təbiət onun təxəyyülünə hakim kəsilmişdi, yaddaşı daim onu Zəngəzur dağlarında yerləşən Azərbaycan kəndlərindən birində keçən uşaqlıq illərinin təəssüratlarına qaytarırdı. Onun kətan üzərində yağlı boya ilə çəkdiyi ilk işi, tərk etdiyi Vətənin Zəngəzur dağlarının mənzərəsi idi.

Hüseyn Əliyevin kətan üzərində yağlı boya ilə ilk təcrübəsində bu rəmzi obraz Zəngəzurdur. Gözlənilmədən birinci planda yerləşdirilən realistik və dəqiq təsvir edilmiş yaşıllaşmaqda olan ağac fraqmenti tablonun sol tərəfini tutaraq, əsərin əsas məzmununun mücərrəd tərənnümünü gücləndirir. Ümumiləşdirmə və dekorativlik format etibarı ilə kiçik olan bu əsərə müəyyən bir möhtəşəmlik gətirir. Onu dekorativ panno kimi divara köçürülmüş şəkildə asanlıqla təsəvvür etmək olar[13].

H.Əliyev müxtəlif janr və üslublarda realistik rəsm ustası və mahir kolorist kimi özünü göstərmişdi. Buna baxmayaraq, lirik, romantikləşdirilmiş mənzərə rəssamın yaradıcılığının əsas mövzusu idi.

Hüseyn Əliyev adətən, mənzərələrini qrafika texnikasında çəkərdi. O, doğma vətəninin əsrarəngiz təbiətinə vurğun olduğundan bu gözəlliklərin itməsinə heyfi gələrdi və bu gözəllik həmişə seyr edilsin deyə, dərhal onu tablo, kağız üzərinə köçürürdü. 1960-1970-ci illərdə çəkdiyi mənzərələri

---

[13] Eldarova L. Hüseyn Əliyev 1911-1991 "Sərvət" Bakı, 2013, 104 s.

sənətin bu janrına yeni abu-hava gətirdi. Gəzdiyi, gördüyü və valeh olduğu füsunkar yerlərin təbiətini H.Əliyev fırça ilə kətan və ya kağız üzərində canlandırırdı.

Bu yarımfəsildə həmçinin, mənzərə janrında yaradılmış əsərlərin rəng, kompozisiya quruluşu və s. haqqında məlumat verilmişdir.

Rəssamın təbiət gözəlliklərini əks etdirən əsərləri monumentallığı və qeyri-adi koloriti ilə seçilir, onun Vətənə böyük sevgisindən xəbər verir. H.Əliyev bu ifadəni tez-tez təkrarlayırdı: "Mənim müəllimim təbiətin özüdür"[14]. Təbiətə vurğunluğu onun hər bir əsərində, rənglərin palitrasında, yaradılmış komponentlərin reallığında hiss olunur.

1960-1970-ci illərdə yaratdığı mənzərələr sənətin, məhz, bu janrına yeni nəfəs və ruh gətirmişdi. Doğma yerlərin bənzərsiz təbiəti Hüseyn Əliyevin fırçası ilə kətan üzərində canlandıqca, sanki yeni bir möcüzə ilə qarşılaşırdın. Yoluna, izinə, dağına, dərəsinə bələd olduğumuz yurd yerlərinin əzəməti, gözəlliyi önündə bir daha valeh olursan. Rəssamın Göygölün təsvirinə həsr edilmiş silsilə əsərləri xüsusi diqqət cəlb edir. Xalq rəssamı Azərbaycan təbiətinin incilərindən sayılan bu mavi gözlü gözəlin müxtəlif variantlarda təsvirini yaratmışdı. Gah dağların qoynunda məskən salmış Göygölün mavi sularını kətanda əks etdirir, gah da hər hansı təkrarolunmaz gözəlliyindən yeni mövzu tapırdı. Onun qurduğu kompozisiyalar, rəng ötürmələri, koloritlik öz bənzərsizliyi ilə seçilirdi. İki il ərzində Kəpəz dağının 25-dən artıq akvarel görünüşünü kətana naxışlayan Hüseyn Əliyev həqiqətən möcüzə yaratmışdı[15].

Xalq rəssamı Mikayıl Abdullayev sənət dostunun bu uğurundan böyük fərəhlə yazırdı: "Dünya təcrübəsində yalnız italyan rəssamının bir dağın on görünüşündən başqa heç kim bir obyektin 25 görüntüsünü kətan üzərində əks etdirməyib. Təəssüf ki, bu əsərlərin yalnız 13-ü əlimizdədir, 3 əsərinin slaydı qalmış, 1 əsəri isə fotoşəkil formasında qorunub saxlanmışdır. Hüseyn Əliyevin «Göygöl mənzərələri» adlı albomunda rəssamın 17 mənzərəsi verilmişdir"[16].

Sənətşünaslıq doktoru, professor Kərim Kərimov xalq rəssamı Hüseyn Əliyevin mənzərə əsərləri haqqında qeyd edir ki, "Hüseyn Əliyev mənzərə əsərlərini yaradarkən şərqin miniatür rəssamlarının ənənəvi metodundan istifadə edir. Yəni, o, mənzərələrini xəyalında yaradır. Lakin bu xəyal təbiətin, bizi əhatə edən aləmin dərindən müşahidə edilməsinə və duyulma-

---

[14] Mənim müəllimim təbiətin özüdür. "Mədəniyyət" qəz., 2016, 3 iyun.
[15] Габибов Н.Д. Пейзажная живопись Азербайджана // журн. «Искусство», 1969, № 5
[16] Abdullayev M. Onun tənqidi haqlı olardı. Hüseyn Əliyev-90. "Xalq qəzeti", Bakı, 2001, 27 aprel. s.5

sına əsaslanır”[17].

Rəssam tərəfindən yerinə yetirilmiş lirik təbiət lövhələri özünün bədii formasına, obrazlı quruluşuna görə dekorativ xarakter daşıyır. Bu saf, parlaq və şəffaf akvarel boyalar əsərin təsvir səthinin üzərini bütünlüklə örtərək bir tərəfdən gözəl rəng harmoniyası doğurur, digər tərəfdən müəyyən, bəzən hətta təcrid edilmiş, lakin həmişə dekorativ cəhətdən əsərin məzmununu açıb göstərən ifadəli obrazlar yaradır.

Bu fəslin **“Monotipiya və qarışıq texnika ilə işlədiyi əsərlərin təhlili”** adlanan **ikinci yarımfəslində** rəssamın müxtəlif dövrlərdə monotipiya və qarışıq texnikada yaratdığı mənzərə əsərləri şərh olunur.

Xalq rəssamı Hüseyn Əliyevin işlədiyi digər bir texnika monotipiyadır. Akvarel texnikasının sirləri ilə Leninqradda tanış olan sənətkar Azərbaycana qayıdaraq onu tətbiq etməyə başladı. Bu texnikada su, boya və kağız birləşərək ortaya abstrakt anlayışa malik əsərlər meydana çıxardır. Rənglər qarışaraq mücərrədlik yaradır və bu keyfiyyət də məhz, sözü gedən texnikanın məzmunudur.

Akvarel-monotipiyanın yaranma tarixi hələ XI əsrə təsadüf edir. Lakin bundan əvvəl suda həll oluna bilən boyalara qədim Misir sərdabələrində rast gəlinir. Amma sərdabə divarlarında bu boyalardan istifadə akvarel-monotipiyanın nəzəri və şüurlu formada yaranmasına dəlalət etmir. Bu kortəbii təsadüf nəticəsində yaranmış konkret məzmunlu rəsmlərdə istifadə olunmuşdu. Misir sərdabələrdə çəkilmiş rəsmlər isə konkret məfhumları ehtiva edirdi. Sulu boyanın yaranması və onun tətbiqi akvarel monotipiyanın yaranması demək deyil. Bu, həmin texnikada istifadə olunan bir elementin – suda həll oluna bilən boyanın kortəbii kəşfi sayıla bilər.

Akvarel sənəti çoxdan yaransa da, monotipiya texnikasında əsərlər yaratmaq sonrakı dövrlərə gedib çıxır. XX əsr Azərbaycan incəsənətində isə, monotipiya texnikası ilə işləyən yeganə rəssam Hüseyn Əliyev olmuşdur. Hüseyn Əliyevin monotipiya kolleksiyası məzmun və faktura etibarilə kifayət qədər zəngindir. Onun monotipiya texnikası ilə işlədiyi mənzərələri tamaşaçıya sənətkarın yüksək bədii mədəniyyətini, texniki imkanlarının zənginliyini, vizual ifadə vasitələrindən geniş və sərbəst istifadə bacarığını yaradıcılığının bütün başqa janrlarından daha geniş və aydın şəkildə göstərir.

Sənətşünas Lalə Eldarova onun monotipiyalarını aşağıdakı kimi şərh edir; “Həyatın bütün dəbdəbəsi təbiətin coşqun rənglərinə bölünərək, rəssamın monotipiyalarındakı palitrasının rəng və işıqla zənginləşmiş boya

[17] Kərimov K. Hüseyn Əliyev. Lirik mənzərələr. – Bakı: “İşıq”. 1983, s. 7.

çoxrəngliliyinin təntənəsi ilə göz önünə gəlir. Bu monotipiyaların postimpressionist tərzdə işlənməsi-sərbəst şərh olunan planların, özünü parlaq şəkildə büruzə verən rənglərin, qatı kölgələrin və birinci plandakı aydın görünən konturla götürülmüş lakonik və iri detalların təsiri ilə sərbəst yerdəyişməsinə yastılaşdırılmasına imkan verir”[18].

Rəssamın Azərbaycan təsviri sənətində yenilik kimi gətirdiyi monotipiya janrında icra etdiyi əsərlərində əsasən, təbiət, məkan təsvirləri üstünlük təşkil edir. Burada rəssam eyni zamanda təbiət motivlərinin, hadisələrinin xarakteristikasını, psixologizmini açmağa yönəli fəlsəfi yanaşma hiss təlqin edir.

Hüseyn Əliyevin bu sahədəki yaradıcılığında reallıqla, şüaraltı düşüncənin, daxili hisslərin, təbiət hadisələrinin real tərənnümünü deyil, daha çox onlara olan münasibətini rənglər vasitəsilə əks etdirməyə cəhd etdiyini və bunu uğurla həyata keçirdiyini deməyə əsas verir.

Bu qəbildən olan əsərlərdəki kompozisiya özündə əsasən təsvir obyektlərinin öz aralarında qarşılıqlı əlaqəsi ilə onların simmetriyası və ya tarazlığı, konturlarının dinamikası üzərində qurularaq, uğurlu rəng münasibətləri əsasında həyata keçirilmişdir.

Güclü rəng çalarları, dinamik ekspressiya, hərəkət və hadisələrə fəlsəfi baxışın səciyyələndirdiyi bu tipli əsərlərin bizə diktə etmək istədiyi hadisəni tərənnüm etmək üçün rəssam elə bir kompozisiya forması yaratmışdır ki, həmin səhnənin önündə və arxasında duran situasiya haqqında artıq fikir yaranır.

Hüseyn Əliyevin yaradıcılığına diqqət edərkən əsasən təbiət mənzərələrində detallardan daha çox rənglərin bir-biri ilə oyunu sayəsində dinamikliyin şahidi oluruq. Rəssam əsərlərindəki ekspressiv dinamikanı məhz yaxın və ya təzadlı rəng oyunları ilə həyata keçirmişdir.

Monotipiya texnikası ilə işlənmiş konseptual mənzərə xətti-sənətkarın bədii kredosunu ardıcıllıqla üzə çıxarmaq nöqteyi-nəzərincə, daha geniş və daha əhəmiyyətlidir. Bu, şərti detallarla dolu olan, palitranın müəyyən dekorativliyi ilə və rəngarəng ləkələrin illüzor fakturası ilə fərqlənən mücərrəd-simvolik vərəqlər bütünlüklə Hüseyn Əliyev yaradıcılığının yetkin dövrünə aiddir. Onlar nə qədər mücərrədləşdirilibsə, perspektiv bir o qədər şərtiləşir – planlar sıxılır, yastılanır, qarışır, kəsişirlər. Perspektivi quran xətlərin kəsişmə nöqtəsi vərəqin qabaq kənarına sıx yaxınlaşır, bəzi hallarda hətta birinci plana çıxaraq, geriyə qatlanan, qabarmış boşluq təəssüratı

[18] Eldarova L. Hüseyn Əliyev 1911-1991 “Sərvət” Bakı, 2013, s. 17.

yaradır və bununla da onların fantastik təzahürünü gücləndirir[191].

Hüseyn Əliyevin monotipiya texnikası ilə işlədiyi mənzərələri tamaşaçıya sənətkarın yüksək bədii mədəniyyətini, texniki imkanlarının zənginliyini, vizual ifadə vasitələrindən geniş və sərbəst istifadə bacarığını yaradıcılığının bütün başqa janrlarından daha geniş surətdə açıb göstərir. O, rəng oyununa fəlsəfi yanaşma, öz təəssüratlarından, daxili hisslərindən doğan mənəvi həssaslığının tərənnümü kimi ifadə etdiyini iddia etməyə əsas verir.

**Nəticədə** rəssamın çoxşaxəli yaradıcılığı yekunlaşdırılır və tədqiqatın əsas nəticələri göstərilir:

- H.Əliyevin yarım əsrdən çox bir dövr ərzində Azərbaycan təsviri sənətinə çox dəyərli nümunələr bəxş etmiş rəssamlardan biridir.
- Onun zəngin yaradıcılığında qrafika və rəngkarlığın bütün sahələri öz əksini tapmışdır.
- Hüseyn Əliyevin yaratdığı ilk karikatura işləri xalqın maariflənməsi baxımından çox böyük əhəmiyyətə malikdir.
- Hüseyn Əliyevin yaratdığı portret əsərləri öz fəlsəfi keyfiyyətləri ilə diqqəti cəlb edir.
- Onun janrlı tablolarında ümumbəşəri dəyərlərə rast gəlinir.
- Realistik mənzərə əsərlərində yerli təbiət lövhələrindən lazımı qədər istifadə etmişdir.
- Xalq rəssamının monotipiya əsərləri məzmun müxtəlifliyi, motiv və rəng həllinin zənginliyi ilə fərqlənir.
- Hüseyn Əliyevin yaradıcılıq üslubunda əsasən gərgin emosional xüsusiyyətlər, daxili psixoloji və fəlsəfi keyfiyyətlərin üstünlüyü diqqət mərkəzindədir.

[19] Eldarova Lalə. Titrəyən kölgələr, sayrışan işıq, Hüseyn Əliyev 1911-1991. Bakı, 2011, s. 21

**Dissertasiyanın mövzusu ilə bağlı dissertantın aşağıdakı məqalələri dərc edilmişdir:**

1. Hüseyn Əliyev boyakarlığında Göygöl mövzusu // "Elmi əsərlər" Naxçıvan NDU Qeyrət" nəşriyyatı, 2014 s. 189-193.

2. Akril kağız və pleksiqlas üzərində sənət // "Mədəniyyət.az" Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, 2015. s. 86-89.

3. Uforgettable Azeri painter Husein Aliyev // "Проблемы современной науки и образования". M., 2015 . стр.240-243.

4. Husein Aliyev`s caricatures in satirical journals // European Research XI International scientific and practical conference. Moscow 2015, pp. 135-137.

5. Müxtəlif incəsənət cərəyanlarının Hüseyn Əliyev yaradıcılığında təcəssümü // "Elmi əsərlər" Naxçıvan NDU "Qeyrət", 2016 s. 200-202

6. Xalq rəssamı Hüseyn Əliyev yaradıcılığında qrafika texnikası // Azərbaycan Respublikası Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları Azərbaycan Dövlət Neft və Sənaye Universiteti 24-25 may 2016-cı il 2 cilddə II cild Bakı, 2016 (NDU) s. 525-527.

7.Техники художеств азербайджанского художника Гусейна Алиева // AMEA-nın Naxçıvan bölməsi Elmi Əsərlər "Axtarışlar" Naxçıvan, 2016. s.160-166.

8. Hussein Aliyev`s life-memories and creative activity in his partners` impressions // "Elmi əsərlər" Naxçıvan NDU "Qeyrət", 2017 s. 274-277

9. Жанровые особенности творчества азербайджанского художника Гусейна Алиева // Московский Государственный Хозяйственный Университет Промышленности журнал «Вестник». M., 2017 с.459-465

10. Hüseyn Əliyevin yaradıcılığında natürmort janrı "Elmi Əsərlər, Naxçıvan": NDU, Qeyrət, 2017 № 5(86), s. 151-154.

**Саяра Намиг гызы Садыхова**

**Творчество народного художника Гусейна Алиева**

# РЕЗЮМЕ

Диссертация посвящена исследованию творчества народного художника Азербайджана Гусейна Алиева.

Диссертация состоит их введения, двух глав, пяти подглав, заключения, списков литературы и иллюстраций.

**Во Введении** обосновывается актуальность темы, определяется степень разработанности проблемы, излагаются цель и задачи, научная новизна, характеризуются основные источники, хронологические рамки и практическая значимость работы.

**В первой главе «Особенности и художественные характеристики творчества Гусейна Алиева»** отдельно рассматриваются графические и карикатурные произведения, которые были созданы художником в первые годы его творчества. Здесь также поддаются анализу и портретные работы Гусейна Алиева, созданные им в различных техниках. Психологическая характеристика персонажей и умение выразить человеческие идеи отличительная черта этих полотен.

**Вторая глава называется «Художественное решение пейзажных произведений Гусейна Алиева»** и посвящена исследованию пейзажных работ художника, созданных им в разные времена, как в живописи, так и в акварельно-монотипной, а также смешанной техниках. Изображение природы - главная линия творчества Г.Алиева. В этой главе также рассказывается о цвете, композиционной структуре и других свойствах пейзажей художника.

**В Заключении** обобщаются основные выводы исследования.

**Sayara Namig Sadikhova**

## Creativity of the People's Artist Huseyn Aliyev

## S U M M A R Y

The dissertation is dedicated to the research of the People's Artist Huseyn Aliyev’s creative activity, which is considered in the context of the development of the fine arts of Azerbaijan.

The **dissertation** consists of an introduction, two chapters, five semi-chapters, conclusions and a bibliographic references. In the introduction, the actuality of the topic is substantiated, the degree of research challenges is determined, the purpose and tasks are set out, scientific novelty is presented, and the main sources, the chronological framework and the practical significance of the work are described.

The first chapter is called **"The originality and artistic peculiarities of Huseyn Aliyev's creativity"**. Early graphic drawings and caricatures worked by the artist have been reflected in this chapter. In this semi-chapter, personages’ psychological characters in the paintings worked in different techniques in portrait genre by Huseyn Aliyev have been ascertained and analyzed. Even in the paintings with the simplest plot, he presented human ideas. Namely for this reason, his paintings are actual and immortal for every period.

The second chapter titled **"Artistic and psychological solution of Huseyn Aliyev's creativity in landscape genre"** was subjected to the works implemented in landscape genre by the artist. Nature depictions constitute the basic line of painter’s creative activity. In this chapter, information is given about the works created in landscape genre, color, compositional structure and so on. Here landscape works in aquarelle-monotype and mixed techniques created by the artist in different periods have been commented.

The **Conclusion** summarizes the main findings of the study.

Kağız formatı: 60x84 1/16
Sifariş N 178;Tiraj: 100
«Ecoprint» nəşriyyatının mətbəəsində çap olunmuşdur,
Bakı, Mətbuat pr., 529 məh.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**САЯРА НАМИК гызы САДЫХОВА**

# ТВОРЧЕСТВО НАРОДНОГО ХУДОЖНИКА ГУСЕЙНА АЛИЕВА

Специальность: 621501 – Изобразительное искусство

**А В Т О Р Е Ф Е Р А Т**
**диссертации на соискание ученой степени доктора философии в области искусствоведения**

**БАКУ-2018**